# TƏYİNATINDA DƏQİQ, ÖZÜ BİR İŞIQ...



**YSSDULLA AĞAZADSS, professor**

İllər öncə tədqiqatçısı olduğum Teymur bəy Bayraməlibəyovu, onun elm, təhsil, millət yolunda fədakarlıqlarını xatırladım. Arxivlərdə keçmiş tələbələrindən sevimli müəllimlərinə ünvanlanan məhəbbət, minnətdarlıq dolu məktublarda halallıq istəyən yetirmələrinin birinə cavabında Teymur bəy belə yazırdı: Mənə elə gəlir ki, insan həyatı onda yaxşıdır, onda gözəl və maraqlıdır ki, hər bir şüurlu fərd bizi əhatə edən qaba gerçəkliklərlə gücü çatdığı qədər mübarizə aparır, onları aradan qaldırmağa, dəf etməyə çalışır.Yox, əgər həyatda hər şey mübarizəsiz və asan yolla ələ gəlirsə, belə həyat əsl insani həqiqətlərdən uzaqdır.Aydındır ki, bu cür həyat həm də solğun və cansıxıcıdır. Bir insan, bir fərd kimi həyata, dünyaya təyinatımız ondan ibarət deyildir ki, gözəl xalçalar döşənmiş əzəmətli saraylarda yaşayaq, xizəklərdə yellənək, tapılmayan nadir təamlar nuş edək.Odur ki, əsl insan öz əxlaqi, mənəvi borcunu heç vaxt yaddan çıxarmamalıdır. Bəli!

*Görkəmli dilçi alim, İlham Tahirova haqqında düşüncələr*

**Tutuşmayınca dər atəş, bəlürməz xisləti ənbər...**
***İ.Həsənoğlu***

Yüksək insani məqsədlər naminə çirkablar girdabına düşmüş qardaşları-mızın ağrılarını yüngülləşdirməli, onlara kömək əlimizi uzatmalıyıq ".

Görəsən, həm o zaman, həm bu zaman bütün yaradıcı ziyalılar belə düşünüb, belə işıqlı əməllərdə bulunurmu?Teymur bəy belə düşünür, belə fəaliyyət göstərirdi. Baxmayaraq ki, bu yolda olmazın məhrumiyyətlər yaşadı...

Çox sevinirəm, çox şadam ki, dostlarım arasında beləTanrıdan İnsan oğluna ayrılan təyinatında dəqiq, özü bir işıq olan, haqqında yubiley təbriki yazmaq istədiyim maraqlı bir insan vardır!.Həmin nadir ziyalı, hamımızın sevimlisi AMEA Nəsimi adına Dilçilik İnstitutunun Hind-Avropa dilləri şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor İlham Tahirovdur

Ataların bizə qoyub getdiyi müdrik ifadələr zamanın möhriylə təsdiqini tapmışdır., İnsan çətin gündə tanınar", yaxud, , Əsl dost çətin gündə bilinər" Bunları deməkdən məqsədim vardır.Məni İlhamla tanış edən uşaqlıq, gənclik dostum, görkəmli Azərbaycan dilçisi, filologiya elmləri doktoru, professor Məsud Mahmudov olmuşdur. Elə ilk günlərdən elə sıcaq münasibətlər yarandı ki, sanki uzun illərin dostu idik.İş belə gətirmişdi ki, mənim üçün son dərəcə çətin olan, namizədliyim və doktorluğum dövrünə təsadüf edən 1996-2013-cü illərdə İlham Tahirov AMEA Nəsimi adına Dilçilik İnstitutunun Elmi Katibi vəzifəsində çalışırdı. Bir çox suallarıma həm Məsuddan, həm də İlham müəllimdən cavablar alır, məni ruhdan düşməməyə, çətinliklərdən qorxmamağa çağırırdılar. Həyat ulu Sabirin poetik güzgüsündə ifadə edildiyi kimi böyük bir ələkdir. Üyütmədiyi heç nə qalmır...Bunu necə unutmaq olar



ki, vaxtilə çörək kəsdiyim, çörək verdiyim insanlar məndən danoslar yazdığı, hədyanlar söyləyib ömrümə balta çalmağa cəhd edəndə İlham Tahirovu yanımda görürdüm!...

O zamandan illər keçibdir.İlham da , əziz dostum, qardaşım Məsud da layiq olmadıqları biganəliyi, diqqətsizliyi az yaşamadılar...Amma dediyim O Ələkdən kimlərin saf çıxdığı göz qabağındadır...

Bəzən düşünürəm ki, insan təbii çətinliklərlə yanaşı süni çətinlikləri də yaşamalı, kimin kim olduğunu tanımalıdır.Çətinliklər, maneələr kəmkəsirləri düzəldir, daha geniş miqyasda tanınmaq imkanı yaradır. Həsənoğlunun dediyi kimi, odda yanmayan ətirin (başqa sözlə İnsanın) xisləti, xarakteri bilinməz."

İlham müəllimin çoxcəhətli elmi fəaliyyəti barədə danışmaq çox uzun çəkər.Təkcə onu demək istəyirəm ki, həm Azərbaycan dilçiliyi, həm də ingilis dili mütəxəssisi kimi tanınan, çoxsaylı sanballı monoqrafiyalar müəllifi kimi tanınan, sevilən professor İlham Tahirovun xüsusi bir özəlliyi də vardır.O da dostu professor Məsud Mahmudov kimi son dərəcə təvazökar olmasıdır.

Sonda İlham müəllimdən bir həmkar kimi danışmasam, olmaz. Artıq bir neçə ildir ki, İlham Tahirov uzun yolu qət edərək əsl fədakarlıq göstərir, doğma LDU-da ingilis dili mütəxəssisi kimi çalışır, magistrantlara, doktorant və dissertantlara rəhbərlik edir, universitetimizin inkişafına əhəmiyyətli şəkildə xidmət göstərir.Məni sevindirən daha bir cəhət dostumun həm elmi-metodiki biliyi, həm də yüksək əxlaqı ilə tələbələrinin, həmkarlarının sevimlisinə çevrilə bilməsidir.

Bütün bunlardan sonsuz qürur duyur, İNSAN KİMİ TƏYİNATINDA DƏQİQ, bu səbəbdən ÖZÜ BİR İŞIQ olan tanınmış alim dostuma, əzizim professor İlham Tahirova 60 illik yubileyi münasibətilə ən xoş arzularımı bildirir, möhkəm cansağlığı, yeni-yeni uğurlar diləyirəm.

**11iyun 2023-cü il, Lənkəran**